## Elektrik və elektronika mühəndisliyi

Elektrik və elektronika mühəndisliyi ixtisası müasir dünyanın texnoloji inkişafında əsas rol oynayan sahələrdən biri olmaqla, sənayenin bütün sahələrində, o cümlədən mülki aviasiyada elektrik enerjisi təchizatı sistemlərinin, sənaye elektrik və elektron avadanlıqlarının, elektron qurğuların layihələndirilməsi, istehsalı və texniki istismarı uzrə mütəxəssis hazırlığını nəzərdə tutur.

Bu ixtisas üzrə təhsil alan tələbələr elektrik enerjisinin istehsalı, ötürülməsi, paylanması və istehlakı, sənaye avadanlıqlarının, elektrik elektronikası qurğularının layihələndirilməsi və texniki istismarı sahəsində əhatəli və dərin biliklər əldə edirlər. Müasir dövrdə ağıllı şəbəkə və ev sistemləri, avtomatlaşdırılmış istehsal xətləri, elektrik intiqalı, elektrik və elektron materialları, elektroavtomobil texnologiyaları, mikroelektronika və süni intellektlə inteqrasiya olunmuş idarəetmə sistemləri bu sahənin əsas tədqiqat və tətbiq istiqamətlərindəndir.

İxtisası bitirənlər müxtəlif sənaye sahələrinin və kənd təsərrüfatımım elektrik təchizat sistemlərində, o cümlədən Azərenerji ASC, Azərişıq ASC, SOCAR və digər qurumlarda işləyə bilərlər.

## Energetika mühəndisliyi

Energetika mühəndisliyi ixtisası elektrik stansiyaları və şəbəkələrinin, sənayedə və nəqliyyatda elektrik təchizatı sistemlərinin, onların istilik və elektrik avadanlıqlarının, güc qurğularının, müasir rele mühafizəsi və avtomatikasının layihələndirilməsi, quraşdırılması, rəqəmsal idarə olunması və texniki istismarı üzrə mütəxəssis hazırlığını nəzərdə tutur.

Bu ixtisas müasir enerji sektorunun aparıcı istiqamətləri olan bərpa olunan enerji mənbələri, ağıllı enerji şəbəkələri (smart grids), enerjiyə qənaət və enerji effektivliyi texnologiyaları və enerjisistemlərin avtomatik idarə olunması üzrə mühəndis kadrlar hazırlayır. Bu sahədə təhsil alan tələbələr ənənəvi və yaşıl texnologiyalı elektrik stansiyaları, şəbəkələri, onların idarə olunması, sənaye, nəqliyyat və kommunal infrastrukturda elektrik təchizatı sistemlərinin layihələndirilməsi, enerji audit, enerji effektivliyi, rele mühafizəsi və əks-qəza idarəetmə sistemlərinin tətbiqi sahələrində peşəkar bilik və bacarıqlara yiyələnirlər.

İxtisası bitirənlər müxtəlif tipli elektrik stansiyalarında, elektrik təchizatı üzrə profilləşən müxtəlif şirkətlər və müəssisələrdə, hava limanlarında, metropolitendə, dəmiryolu idarələrində, o cümlədən Azərenerji ASC, Azərişıq ASC və neft-qaz sənayesinin müxtəlif bölmələrində işləyə bilərlər.